# "Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsi, fəaliyyətinin dayandırılması və ləğv edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 1.1.10-cu yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

"Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsi, fəaliyyətinin dayandırılması və ləğv edilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 19 sentyabr 2012-ci il
№ 207

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 19 sentyabr tarixli 207 nömrəli qərarı ilə təsdiq edilmişdir**

# Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsi, fəaliyyətinin dayandırılması və ləğv edilməsi

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Gömrük Məcəlləsinin (bundan sonra - Gömrük Məcəlləsi) 25.4-cü və 26-cı maddələrinə uyğun olaraq hazırlanmışdır və gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsi, fəaliyyətinin dayandırılması və ləğv edilməsi qaydalarını müəyyən edir.

1.2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsindən (bundan sonra - Komitə) ixtisas attestatı almış mütəxəssislər gömrük brokeri adından gömrük rəsmiləşdirilməsi ilə əlaqədar hərəkətləri yerinə yetirmək hüququna malikdirlər.

## 2. Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssis kimi fəaliyyət göstərilməsi üçün şərtlər

2.1. Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislər ali təhsilə malik olan Azərbaycan Respublikasının fiziki şəxsləri ola bilərlər.

2.2. Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssis kimi fəaliyyət göstərilməsi üçün gömrük rəsmiləşdirilməsinə aid ixtisas attestatının (bundan sonra - ixtisas attestatı) alınması məqsədi ilə Komitəyə müraciət edilməlidir.

2.3. Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssis kimi fəaliyyət göstərilməsi üçün şəxslər aşağıda qeyd edilən sahələr üzrə biliyə malik olmalıdırlar:

2.3.1. gömrük qanunvericiliyi və gömrük işi sahəsində - gömrük prosedurları, mal və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilmə qaydaları və şərtləri, gömrük ödənişlərinin növləri, gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi qaydaları, gömrük məqsədləri üçün xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun malların təsnifatı və bəyan edilməsi, malların gömrük dəyərinin və mənşə ölkəsinin müəyyən edilməsi qaydaları, gömrük orqanları tərəfindən gömrük və valyuta nəzarətinin həyata keçirilməsi qaydaları, gömrük statistikası, gömrük işi sahəsində qanunvericiliyin

pozulmasına görə məsuliyyət, gömrük xidmətinin təşkili, gömrük orqanlarının vəzifəli şəxslərinin statusu, hüququ və vəzifələri barədə;

2.3.2. xarici iqtisadi fəaliyyət və onun dövlət tənzimlənməsi sahəsində - xarici iqtisadi sövdələşmələrin bağlanılması və icra edilməsi, qiymətlər, xarici ticarətdə sığorta və nəqliyyat şərtləri, qadağa və məhdudiyyətlər, o cümlədən lisenziyalaşdırma və sertifikatlaşdırma barədə;

2.3.3. iqtisadiyyat, vergi, maliyyə-kredit, ödəniş-hesab və valyuta münasibətləri, bank işi barədə;

2.3.4. gömrük sahəsinə aid hissədə mülki hüquq, maliyyə hüququ, beynəlxalq və dövlət hüququ və cinayət hüququ barədə;

2.3.5. Komitə tərəfindən verilmiş hüquqlar çərçivəsində mütəxəssisin fəaliyyəti üçün zəruri olan gömrük orqanlarının elektron məlumat sistemlərindən istifadə edilməsi barədə.

## 3. Gömrük rəsmiləşdirilməsi üzrə ixtisas attestatının verilməsi

3.1. Namizədə ixtisas attestatının verilməsi məqsədi ilə bu Qaydaların 2.3-cü bəndində qeyd olunan sahələr üzrə onun biliyə malik olub-olmaması Komitə tərəfindən müasir texnologiyalardan istifadə edilməklə, test üsulu ilə müəyyən edilir.

3.2. Gömrük brokeri kimi fəaliyyət göstərməsi üçün hüquqi şəxslər onların ştatında olan əməkdaşlara ixtisas attestatının verilməsi üçün Komitəyə yazılı və ya elektron formada müraciət edir və aşağıda göstərilən sənədləri təqdim edirlər:

3.2.1. hüquqi şəxsin vəsatəti;

3.2.2. gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssis kimi fəaliyyət göstərməsi üçün hüquqi şəxsin ştatında olan əməkdaşın ərizəsi;

3.2.3. həmin əməkdaşın şəxsiyyət vəsiqəsinin surəti;

3.2.4. hüquqi şəxs ilə onun ştatında olan əməkdaş arasında bağlanılmış əmək müqaviləsinin və işə qəbulu barədə əmrin surəti;

3.2.5. əməkdaşın müvafiq təhsili barədə dövlət sənədinin təsdiq edilmiş surəti;

3.2.6. əməkdaşın hansı fəaliyyət növü ilə məşğul olmasını təsdiq edən sənədin surəti.

3.3. Təqdim edilmiş sənədlərə Komitə tərəfindən 5 (beş) iş günü müddətində baxılaraq, şəxsin testə buraxılması haqqında qərar qəbul edilir.

3.4. Komitə tərəfindən bu Qaydaların 3.2-ci bəndində qeyd olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, namizədin testə buraxılmasından imtina edilməsi barədə qərar qəbul edilir.

3.5. Qəbul edilmiş qərar barədə 1 (bir) iş günü müddətində müraciət etmiş şəxsə müvafiq qaydada məlumat verilir və qəbul edilmiş qərarın surəti məlumata əlavə olunur.

3.6. Bu Qaydaların 3.2-ci bəndində qeyd olunmuş sənədlərdə çatışmazlıqlar aradan qaldırıldıqdan sonra namizədin testdən keçməsi üçün tələb olunan sənədlər yenidən Komitəyə təqdim edilə bilər.

3.7. Testdən uğurla keçmiş namizədlərə 5 (beş) iş günü müddətində ixtisas attestatı verilir (ixtisas attestatının forması bu Qaydaların əlavəsində göstərilmişdir).

3.8. İxtisas attestatında aşağıdakı məlumatlar göstərilir:

3.8.1. Komitənin tam adı;

3.8.2. ixtisas attestatının nömrəsi;

3.8.3. ixtisas attestatı verilən fiziki şəxsin adı, soyadı, atasının adı və yaşadığı ünvan;

3.8.4. ixtisas attestatının verilmə tarixi;

3.8.5. ixtisas attestatının etibarlılıq müddəti.

3.9. İxtisas attestatının əsli bir nüsxədən ibarət olaraq sahibinə verilir, ixtisas attestatının verilməsini təsdiq edən sənədlər isə Komitədə qalır. İxtisas attestatı yararsız hala düşərsə və ya itirilərsə, mütəxəssisə ixtisas attestatının dublikatı verilir.

3.10. İxtisas attestatının verilməsinə görə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğdə yığım alınır.

3.11. İxtisas attestatının qüvvədə olma müddəti 5 (beş) ildir.

4. İxtisas attestatının fəaliyyətinin dayandırılması və ləğv edilməsi

4.1. Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssisin öz vəzifələrini Gömrük Məcəlləsinin və bu Qaydaların tələblərini və şərtlərini yerinə yetirməməsi barədə kifayət qədər əsaslar olduqda, Komitə tərəfindən ixtisas attestatının fəaliyyəti 1 (bir) il müddətinə dayandırılır.

4.2. Mütəxəssisin fəaliyyətində ixtisas attestatının fəaliyyətinin dayandırılmasına əsas hesab edilə bilən hallar gömrük orqanı tərəfindən müəyyən olunduqda, həmin halların qeydiyyatı aparılır və bu barədə dərhal Komitəyə məlumat verilir.

4.3. İxtisas attestatının fəaliyyətinin dayandırılması Komitə tərəfindən qəbul edilmiş qərarla müəyyən olunur.

4.4. Qəbul edilmiş qərar barədə 1 (bir) iş günü müddətində barəsində qərar çıxarılmış şəxsə və gömrük brokerinə məlumat verilir və qərarın surəti məlumata əlavə edilir.

4.5. İxtisas attestatının fəaliyyətinin dayandırılması ilə razılaşmadıqda, mütəxəssis inzibati qaydada və (və ya) məhkəməyə şikayət edə bilər.

4.6. İxtisas attestatının fəaliyyətinin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqda, həmin ixtisas attestatının fəaliyyətinin bərpa edilməsi üçün gömrük brokeri müəyyən olunmuş qaydada Komitəyə müraciət edir.

4.7. İxtisas attestatının fəaliyyətinin dayandırılmasına səbəb olmuş hallar 6 (altı) ay müddətində aradan qaldırılmadıqda, Komitə ixtisas attestatının ləğv edilməsi üçün məhkəməyə müraciət edir.

4.8. İxtisas attestatı Komitə tərəfindən aşağıdakı hallarda ləğv edilir:

4.8.1. gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssisin öz arzusu ilə;

4.8.2. məhkəmənin müvafiq qərarı əsasında.

4.9. Qəbul edilmiş qərar barədə 1 (bir) iş günü müddətində barəsində qərar çıxarılmış şəxsə və gömrük brokerinə məlumat verilir və qərarın surəti məlumata əlavə edilir.

4.10. Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssisin ixtisas attestatının fəaliyyəti dayandırıldıqda və ya ləğv edildikdə, ixtisas attestatının verilməsinə görə ödənilmiş yığım geri qaytarılmır.

## 5. Yekun müddəa

Bu Qaydaların müddəalarının tələblərinin pozulmasına görə ştatında gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssis olan gömrük brokeri, gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislər və gömrük orqanının vəzifəli şəxsləri qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

"Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsi, fəaliyyətinin dayandırılması və ləğv edilməsi Qaydaları"na əlavə

**Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi**

**Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssisin**

**___________№-li**

**İXTİSAS ATTESTATI**

_______________________________________________________________________________________
(fiziki şəxsin adı, soyadı və atasının adı)

Yaşadığı ünvan _______________________________________________________________________________________________________________________________________________________________

İxtisas attestatının verilmə tarixi: ____________________________________________

İxtisas attestatının etibarlılıq müddəti: ________________________________________

**Azərbaycan Respublikası**
**Dövlət Gömrük Komitəsinin sədri**
**İmza**

M.Y.